# FHN-nin Şimal-qərb Regional Mərkəzində dəyirmi masa





27 oktyabr 2015-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin və FHN Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə baş İdarəsinin birgə təşkilatçılığı ilə "Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların icra hakimiyyəti strukturları, özünüidarəetmə orqanları və fövqəladə hallar komissiyaları arasında fövqəladə hallar sahəsində birgə fəaliyyətin gücləndirilməsi və koordinasiyasının qurulması" mövzusunda "dəyirmi masa" təşkil edilmişdir.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, Fövqəladə Hallar Nazirliyinin regionda fəaliyyət göstərən yerli qurumlarının, rayon ərazisində fəaliyyət göstərən müvafiq idarə və müəssisələrin rəhbərləri, kənd və qəsəbə inzibati ərazi nümayəndələri, yerli özünüidarəetmə orqanlarının nümayəndələri iştirak etmişdir.

Tədbirdə Şimal-qərb Regional Mərkəzi ilə Qəbələ rayonunda fəaliyyət göstərən idarə və müəssisələr arasında razılaşdırılmış qarşılıqlı fəaliyyət planlarının geniş təhlili aparılmışdır. Həmçinin, təbii, texnogen xarakterli fövqəladə hadisələr zamanı davranış qaydaları, fərdi mühafizə, yanğınsöndürmə avadanlıqlarından istifadə etmə, yanğın, texniki təhlükəsizlik qaydalarının tələblərinə düzgün riayət olunmasına nəzarətin gücləndirilməsinin vacibliyi iştirakçıların nəzərinə çatdırılmışdır.

Sonda rayon idarə və müəssisə rəhbərlərinin, yerli icra və özünüidarəetmə orqanlarının nümayəndələrinin təklifləri dinlənilmişdir.

**"Qəbələ".**

# Prezident İlham Əliyevin azad sahibkarlığın inkişafına göstərdiyi qayğı ölkəmizdə əldə olunan uğurların əsasını təşkil edir

**(Əvvəli 2-ci səhifədə).**

Yuxarıda qeyd etdiyimiz nailiyyətlər ölkədə azad sahibkarlığın inkişafı və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyilə sahibkarlığın inkişafına göstərilən qayğının nəticəsində mümkün olmuşdur. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi bazar iqtisadiyyatı yolunu tutmuş hər bir ölkənin sabit və davamlı inkişafında sahibkarların, özəl sektorun rolu misilsizdir. Hələ ölkə Prezidenti kimi fəaliyyətə başladığı ilk vaxtlardan başlayaraq cənab İlham Əliyev sahibkarlığın inkişafına böyük diqqət yetirmişdir. 2004-cü ilin fevralında Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları diqqətlə dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi köməklik göstərəcəyini bəyan etmişdir. Dövlət başçısı inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu halların aradan qaldırılması üçün müvafiq hüquqi aktların qəbul olunmasını təmin etmişdir.

Son 10 ildə Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi, bu sahədə müasir informasiya-kommunikasiya texnologiyalarının mütərəqqi yeniliklərinin tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, elektron xidmətin geniş tətbiqi biznes mühitinin daha da yaxşılaşdırılmasına səbəb olmuşdur. Ölkə Prezidentinin hələ 30 aprel 2007-ci il tarixdə imzaladığı Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında fərman bu istiqamətdə mühüm sənədlərdən olmuşdur. Belə bir fərmanın imzalanması o dövrə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, eyni zamanda süründürməçilik hallarının aradan qaldırılması sahəsində sözün əsl mənasında əsaslı dəyişikliklərə yol açmışdır.

Ötən illərdə sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyat sisteminin tətbiqi, habelə bu sahədə elektron xidmətlərin genişləndirilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına müsbət təsir göstərmişdir. 2005-2015-ci illərdə həyata keçirilmiş bu islahatlar hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanma imkanı yaratmışdır.

Dövlət başçısının 2010-cu il aprelin 13-də imzaladığı «Sahibkarlıq sahəsində aparılan yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında» fərmanı sahibkarların fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında mühüm addımlardan biri olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 mart tarixli "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı da bu sahədə ötən illərdən başlanmış islahatların mütərəqqi davamını təmin etmişdir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Fərmana əsasən, Nazirlər kabineti qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri, habelə Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin «Bir pəncərə» prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasındakı nitqində dövlət başçısı ölkəmizdə azad sahibkarlığın inkişafında yeni mərhələnin başlandığının anonsunu verdi. Ölkə Prezidenti qəti şəkildə bildirdi ki, azad sahibkarlığın inkişafına əngəl törədən bütün hallara qarşı ciddi tədbirlər görüləcəkdir. Bu prinsipial və qətiyyətli mövqe əslində dövlət başçısının sahibkarlığın inkişafı ilə bağlı son 12 ildə həyata keçirdiyi siyasətin mahiyyətini özündə cəmləşdirir.

Nazirlər Kabinetinin son iclasından dərhal sonra ölkə başçısı tərəfindən həyata keçirilən prinsipial tədbirlər sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı və bu sahənin dinamik inkişafı naminə prinsipial siyasi iradə nümayişi kimi dəyərləndirilə bilər. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixdə imzaladığı "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" fərmanının əhəmiyyəti xüsusi qeyd edilməlidir.

Ölkə başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə qəbul olunmuş müvafiq qanun da sahibkarlığın inkişafına xidmət edir. Qanuna əsasən, bu il noyabr ayının 1-dən sahibkarlıq subyektlərində yoxlamalar iki il müddətinə dayandırılır.

Beləliklə, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin siyasi iradəsi və qətiyyəti ilə həyata keçirilən kompleks tədbirlər ən qısa zamanda ölkədə azad sahibkarlığın daha da inkişaf etməsini və Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edəcək.

**Qüdrət SƏMƏDOV.**